WHIPLASH

Damyen Şazel

PARVIZ MAMMADOV

SİZİN SSENARİ MENTORUNUZ

Sssenari, Pərviz Məmmədov tərəfindən Ssenari Mərkəzi üçün tərcümə edilmişdir.

Sayt: www.parvizmammadov.com

QARA EKRAN...

ZƏRBƏ eşidirik. Baraban çubuğu baraban dərisinə qarşı. Aydın, iti.

Sonra ikinci zərbə. Sonra üçüncü və dördüncü. Zərbələr o qədər sürətlə artır ki, bir-birinə qarışmağa başlayır. Silah səsləri kimi...

**1. INT. NASSAU QRUP MƏŞQ STUDIYASI - QEHRINQ ZALI - GECƏ**

Mağara kimi bir məkan. Səs keçirməyən divarlar. Mərkəzdə isə BARABAN DƏSTİ. Onun arxasında, tər ləkələri olan ağ futbolkada, gözlərini "single-stroke roll"a (tərc: tək vuruşlu zərbələrə) zilləyən ENDRYU NIMAN oturub.

O, 19 yaşında, zəif, dərsə fokuslanan, yüksək akademik göstəriciləri olan tələbə kimi çəlimsizdir -- illərlə baraban çalmaqdan güclənmiş qolları istisna olmaqla.

Qəfildən -- bir KİŞİ məşq otağına daxil olur. Dayanır, qalxır--

ENDRYU
Bağışlayın... Üzr istəyirəm--

KIŞI
Yox. Qal.

KİŞİ irəli addımlayır, pencəyini çıxarır. O, hündürboyludur. Əllilərin sonlarında. Qara futbolka, qara şalvar, qara ayaqqabı. Biz onu FLETÇER kimi tanıyacağıq.

Otaq indi tam səssisdir. Və sonra, yumşaqca, çünki o, elə insanlardandır ki, pıçıltısı belə adamı ölümünə qorxuda bilər--

FLETÇER
Adın nədir?

ENDRYU
Endryu Niman, cənab.

FLETÇER
Neçənci kurs?

ENDRYU
Birinci kursam.

FLETÇER
Bilirsən mən kiməm?

ENDRYU
Bəli, cənab.

FLETÇER
Demək, bilirsən ki, musiqiçilər axtarıram.

ENDRYU
Bəli, cənab.

FLETÇER
Elə isə çalmağı niyə dayandırdın?

Pauza. Endryu başını tərpədir, gülümsəyir. Nə baş verdiyini anlayır. Qalan bütün enerjisini toplayır və yenidən çalmağa başlayır. Bu dəfə özünü həqiqətən göstərməyə çalışır. Roll'lar, fill'lər, sürətli çubuq hərəkətləri. O, bitirir..

FLETÇER
Mən sənə yenidən çal dedim?

Endryu ona baxır.

ENDRYU
Hmm... Bağışlayın--
(rəngi ağarır)
Yanlış anl--

FLETÇER
Mən səndən niyə çalmağı dayandırdığını soruşdum. Sənin cavabın isə oyuncaq barabançı meymuna çevrilmək oldu.

ENDRYU
Bağışlayın... mən fikirləşdim ki...

FLETÇER
Mənə rudimentlərini göstər.

ENDRYU
Bəli, cənab.

Endryu başı ilə təsdiq edir. Rudimentləri (tərc: təməl vuruş texnikaları) bir-birinin ardınca çalır: ikiqat vuruş, paradidl, ratamkyu, flam, flamadidl.

FLETÇER (DAVAM)
Dabl taym svinq.

Fletçer əlini tempə uyğun çırpmağa başlayır. Sürətli. Endryu çalır.

FLETÇER (DAVAM)
Yox. İkiqat tempdə. İkiqat elə. Bop-bop-bop-bop-bop-bop-bop-bop-bop-bop.

Endryu tempi ikiqat artırmağa çalışır. Amma bacarmır. Fletçer ƏL ÇALMAĞI DAYANDIRIR. Ölüm işarəsi.

Endryu gözləri bağlı çalmağa davam edir... Sonra -- qapının BAĞLANDIĞINI eşidir. O, dayanır və başını qaldırır. Fletçer gedib.

Az sonra -- qapı AÇILIR. Bu Fletçerdir. Endryunun gözləri böyüyür. Bəlkə də hələ bitməyib...

FLETÇER (DAVAM)
Ay da, pencəyimi unutmuşam.

Fletçer pencəyini götürür, çıxır, qapını BAĞLAYIR. Endryu qarşıya baxır, barabanın arxasında yenə təkdir -- və tamamilə ruhdan düşmüş halda.

Bitdi.

Zalın ÜMUMI PLANI və Endryu yavaş-yavaş qalxır. Ekranda yazı:

**Şaffer Musiqi Konservatoriyası**
**Payız Semestri**